# DİNŞÜNASLIQ

*A.Əlizadə. Sufilikdə məqam və hal anlayışı // Əlyazmalar yanmır, 2019, № 2 (9), s. 250-259.*

UOT: 297

**Aygün Əlizadə**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Z.M.Büynadov adına Şərqşünaslıq İnstitutu*
*Bakı ş. Hüseyn Cavid küç. 117.*
*e-mail: aygunalizade@yahoo.com*

## SUFİLİKDƏ MƏQAM VƏ HAL ANLAYIŞI

*Məqalədə məqam və hal terminlərinin Quran və hədislər baxımından mənşəyi, onların tərifi, ardıcıllığı, predmet və sayının müxtəlifliyi araşdırılmışdır. Tədqiqat Əbu Nəsr Sərracın "əl-Lümə", Xacə Abdullah Ənsarinin "Səd meydan" və "Mənazilüs-sairin", Fəridəddin Əttarın "Müsibətnamə" və Məntiqüt-teyr" əsəri və digər məşhur sufi əsərləri əsasında aparılmışdır. İrfan ədəbiyyatında məqamların meydan, mənzil, bürc, nur, bulaq, dəniz və s. adlandırılmasının səbəbləri izah olunmuşdur.*

***Açar sözlər:*** *məqam, hal, sufilik, predmet ədəbiyyat*

**Giriş**

*Sufilik təliminin əsas məsələlərindən biri istilahların və xüsusilə iki istilahın tərifidir. Əsas irfani mətnlərin əksəriyyətində, o cümlədən "əl-Lümə", "ət-Təərrüf", "Kəşfül-məhcub", "Risaleyi-Quşeyriyyə"də hal və məqam haqqında danışılmış və bu kitabların müəllifləri həmin istilahlarla bağlı tərif, bölgü və arqumentlər verməyə çalışmışlar. Yazıçı və ariflərin diqqətindən məlum olur ki, hal və məqam o dövrün mübahisəli bəhslərindən olmuş, onların məfhum və predmeti düzgün aşkarlanmamış və uzun müddət dəqiq tərifi olmamışdır. Məkkinin "Qutul-qulub"unda, Əbu Mənsur İsfahaninin "Nəhcül-xass"ında, Kəlabadinin "ət-Təərrüf"ündə hal və məqamdan söz açılsa da, təriflər və mərtəbələr eyni və aydın deyil. Əbu Nəsr Sərrac, Quşeyri və Hücviri bu iki istilaha tərif versələr də, şübhə aradan qaldırılmamış və hətta Quşeyri və Hücvirinin təriflərində hal və məqamın misdaqları fərqli formalarda verilmişdir. Tərif, say, mərtəbələr və predmetlərdə olan fikir müxtəlifliyi Söhrəvərdinin zamanına kimi davam edir və Söhrəvərdİ "Əvarifül-məarif"də bu fikir müxtəlifliklərinə işarə edir.*

**İrfan və ariflərin istilahında hal və məqam**

Ariflərin hal və məqamları həmin mənzillərdir ki, salik Rəbbə yaxınlaşmaq üçün onları keçməlidir. Əlbəttə, sufilər həmişə təkid edirdilər ki, təsəvvüfün məqsədi filan fəzilət, məqam ya hal deyil, əksinə bütün fəzilət, hal və məqamları keçmək və Allahın vüsalına nail olmaqdır. Amma o Mütəal varlığa qovuşmaq üçün insan əvvəl həmin fəzilətləri təcrübədən keçirməlidir. Sufilər seyrü-sülukda nəfsin təcrübələri barədə keçici ruhani mənzillərlə davamlı mənzillər

arasında fərqin olduğunu deyirlər və istilahda davamlı mənzilləri məqam (onun cəmi məqamat) və digərini hal (onun cəmi əhval) adlandırırlar. Sufilər müfəssəl şəkildə əhval, məqamat məsələsi və onların bir-biri ilə ixtilafını aydınlaşdırmışlar. Hər bir arif öz təcrübə və əhvalına əsasən bu iki mövzunu izah etdiyindən onların dedikləri zahirdə bir-birindən fərqlənmişdir. Amma əslində onların sözlərinin batini demək olar ki, eynilik təşkil edir. Hal və məqamın tərifləri və bu ikisinin arasındakı ixtilaf dəfələrlə klassik təsəvvüf mətnlərində yazılmışdır.

Əbu Nəsr Sərrac ilk kəslərdəndir ki, hal və məqam istilahları haqqında nisbətən dəqiq tərif vermişdir. O məqamat və əhvalın mənasını belə bəyan edir: Məqamat ibadətlər, mücahidələr və riyazətlərin icrası üçün Allahın qarşısında dayanmaq, məxluqlardan qırılmaq və Allaha qovuşmaqdır. O məqamların predmetlərini ardıcıllıqla tövbə, vərə, zöhd, fəqr, səbr, təvəkkül, Allah zikrinin səfası və riza qeyd etmiş və əhvalı müraqibə, qürb, məhəbbət, xouf, rəca, şövq, üns, təmaninə, müşahidə və yəqin bilmişdir. (9, 97) Hücviri təsəvvüfün ilk mötəbər məxəzlərindən olan "Kəşfül-məhcub"da hal və məqama belə tərif verir. "Məqam haqq yolunda, haqqa əməl etməkdə və həmin məqama riayət etməkdə bəndənin iqamət yeridir ki, Onun kamalını dərk etsin. Elə ki adamda yarandı rəva deyil ki, bir məqamı keçmədən o biri məqama keçsin. Necə ki məqamatın başlanğıcı tövbədir, sonra inabət, sonra zöhd, sonra təvəkkül və s. Rəva deyil ki, tövbəsiz inabət etsin və zöhdsüz təvəkkül iddiası etsin. Belə ki, məqam tələb yolu və ictihad yerində onun qədəmgahıdır və dərəcəsi Həzrət Haqqdan qazandığı qədərdir. Və halın mənası odur ki, insanın özündən asılı olmadan haqqdan onun qəlbinə ötürülsün. Belə ki, məqam ictihad yerində onun tələb yolundan və onun dərəcəsi Həzrət Haqq-Təalada qazancının miqdarındadır. Və hal bəndənin səyindən asılı olmayan Allah-Təalanın fəzli və Onun lütfündən ibarətdir. Məqam əməllərin cümləsindən idi və hal fəzilətlər cümləsindən və məqam məkasib cümləsindən və hal məvahib cümləsindən idi. Belə ki, məqam sahibi öz mücahidəsində gizlin idi və hal sahibi özündən fani idi və onun qiyamı elə bir halda idi ki, Allah-Təala onda yaratmışdır". (24, 274)

"Risaleyi Quşeyriyyə"də yazılmışdır: "Hal qövmün yanında elə bir mənadır ki, qəlbə gəlir, onların onda təsiri olmadan, qazanılandır, o şadlıqdan idi, ya kədər, ya bəst, ya qəbz, ya şövq, ya heybət ya hərəkətdən. Əhval əta olunur və məqam kəsb, əhval səxavət bulağından, məqamat cəhdin səxavətindən və məqam sahibi öz məqamında mütəməkkin idi və hal sahibi daha üstün olur". (18, 92)

İrfani istilahlar lüğətində "hal" haqqında belə yazılmışdır: "Ariflərin yanında təriqət yolunun salikinin pak qəlbinə rəhmətdən hər nə haqq tərəfindən salikin qəsdi olmadan daxil olursa və yenə nəfsin xüsusiyyətlərinin zühuru ilə aradan gedir, onu hal adlandırırlar və elə ki, daimi oldu və salikin mələkəsi oldu məqam adlandırırlar".(8, 307)

Curcani öz məşhur əsərində oxşar fərqlərlə təriflər verir və təkid edir ki, məqam qazanılandır və hal veriləndir ki, cəhd və tələbsiz insanın qəlbinə daxil olur, hüzn, qəbz, bəst, heybət və ... və hal nəfsin sifətlərinin yaranması ilə aradan gedir. Hal davam edəndə və mələkəyə çevriləndə məqam adlandırılır... Əhval veriləndir və məqamat kəsb edilən adlanır. Əhval səxavət çeşməsindən, məqamat çoxlu səylə əldə olunur". (7, 56)

Sufilərin əksəriyyəti hal və məqam arasındakı fərqi qəbul etmişlər, amma az bir hissəsi, o cümlədən Haris Müsahibi məqam kimi halın davamlığına inanmışlar.

Halın keçici olması xüsusiyyəti israr zərurətinə və səylərin davamlığına dəlalət edir ki, insan davamlı qürb məqamına nail olsun. O məqamın hasil olmasına kimi sufinin elə bir halı ola bilər ki, onu varlığının adi mərtəbəsindən yuxarı aparsın. Deyildiyi ki, əhvalın bəzisi davam edə bilər. Sonuncu sufilərin bəzisi əhvalın bir hissəsini məqamat zümrəsində bilmişlər. Məqamları davamlılıq və sabitlik xüsusiyyətinə görə əhvalla müqayisədə daha rahat saymaq olar.

Məqamat və əhvalın tərifi, tərtibi, sayı haqqında sufilər arasında fikir ixtilafı vardır. Bu ixtilaf halları üç hissəyə bölünür:

1- Tərifdə ixtilaf: Ariflərin nəzərində məqam qazanılandır, mücahidə və riyazətlə əldə olunur, lakin hal ilahi bəxşişdir ki, Allah tərəfindən sufinin qəlbinə daxil olur. Buna əsasən "qazanma və verilmə" halın məqamdan fərqləndirilməsinin meyarıdır. Buna görə hal və məqam arasında tərif və bölgü asan olmamışdır. Quşeyri və Kəlabadi hal və məqam arasında sərhəddin olmadığını demişlər.

2- Ardıcıllıqda ixtilaf: İrfani kitabların müəllifləri öz irfani təcrübələrinə əsasən məqam ya hallar üçün dərəcələr seçmişlər və bu təcrübələrin müxtəlifliyi ona gətirib çıxarmışdır ki, əhvala qovuşma ardıcıllığı ya məqamatın qazanlıması mərtəbələri fərqli qeyd olunmuşdur. Və hətta hal və məqam bir sufiyanə seyrü-sülukun iki cilvəsidir, bəzən bir-biri ilə qarışmış və ya bir-birinin bir qolu kimi təqdim olunmuşdur. Misal üçün Əbu Mənsur İsfahani "Nəhcül-xass"da məqamı əhvalın bölgüsündə görür.

3- Predmetdə ixtilaf: Ariflərin hər biri məqam üçün predmetlər nəzərdə tutmuşlar. Haris Mühasibi rizanı əhvaldan bilir. Onun əksinə olaraq Sərrac rizanı ruhi məqamlarda təkamülün sonuncu pilləsi bilir. Quşeyrinin fikrincə Xorasan sufiləri rizani məqamatdan, İraq sufiləri rizanı əhvaldan hesab etmişlər. Və Müstəmli "ət-Təərrüf"də hal və məqamın predmetlərini bir-birindən ayırır. Hal və məqamın predmetləri haqqında bu fikir müxtəliflikləri VI əsrə (XIII) kimi davam etmişdir.

4- Sayda ixtilaf: Təsəvvüfün formalaşmasının ilk illərində məqamat və əhavlın sayı məhdud idi. Şəqiq Bəlxinin "Adabul-ibadat" risaləsində yalnız dörd mənzildən danışılır, lakin IV əsrin II (XI ərsin II yarısı) yarısında və daha sonra onların sayı artır və təqribən 40 məqam və hala çatır. Kəlabadi "Təərüf"də 30 məqamı qeyd edir. Sərrac yeddi məqam və on haldan danışır. Müstəmili "Təərrüf"ün şərhində otuz məqamı qeyd edir. Süləmi "Dərəcatül-müamilat"da 44 sözü şərh edir. V (XII) əsrdə Xacə Abdullah Ənsari "Mənazilüs-sairin"də yüz mənzil, "Səd meydan"da yüz meydanın adını çəkir və Ruzbəhan Bəqli "Məşrəbül-ərvah"da min bir məqamı şərh edir.

**Məqamat istilahının mənşəyi**

"Tövbə, vərə, zöhd, fəqr, səbr, təvəkkül, riza və s. kimi məqamatın mənşəyi nədir? - sualına cavabda demək lazımdır: Bu istlahların birinin məxəzi Qurandır ki, onun tilavət və xətmi həmişə zahidlər sufi abidləri arasında yayılmışdır. Birinci mərhələdə əxlaqi və mənəvi adlar kimi nəzərə gəlmişlər, sonra sufilər bu sözləri əhatə edən ayələrdə təvil edərək irfani ad və istilahlara çevrilmişdir.

Ariflərin kitablarında daha çox istinad olunan aşağıdakı ayələr həmin mətləbə sübutdur.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَّصُوحًا

Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin. (66/8)

الَّذِينَ صَبَرُوا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ

O kəslər ki, səbr edər və yalnız Rəbbinə bel bağlayarlar! (29/59)

فَسَوْفَ يَأْتِي اللَّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ

Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. (5/54)

إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاءُ

Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. (35/28)

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً

"Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!") Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! (89/27-28)

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilendir!) (35/15)

وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ

Şübhəsiz ki, Rəbbinin məqamından (hüzurunda haqq-hesab üçün durmaqdan) qorxanları iki cənnət (Ədn nə Nəim cənnətləri) gözləyir! (55/46)

فَمَن كَانَ يَرْجُو لِقَاء رَبِّهِ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا

Kim Rəbbi ilə qarşılaşacağına (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə (yaxud qiyamətdən qorxursa), yaxşı iş görsün (18/110)

Qurandan sonra məqamatın mənşəyini Peyğəmbər (s), imamlar (ə) və xüsusilə Həzrət Əlinin (ə) hədislərində görmək olar. Şükr, zikr və səbr haqqında Peyğəmbər (s) buyurmuşdur:

قال رسول الله (ص): اربع من اعطيهن فقد اعطى خير الدنيا و الاخرة، قلبا شاكرا و لسانا ذاكرا و نفسا علي البلاء صابرا و ثقة بما تكفل الله.

Üns və məhəbbət haqqında Həzrət Əli (ə) buyurmuşdur:

قال علي (ع): من تألف الناس احبوه.

Məqam Saffat surəsinin 164-cü ayəsində olan Quran sözüdür.

وَمَا مِنَّا إِلَّا لَهُ مَقَامٌ مَّعْلُومٌ

"Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri olmasın! (37/164)

Ariflərin çoxu məqam terminini şərh edən zaman bu ayəyə istinad etmişlər. "Mənzil", "meydan" və "dərəcə" istilahları məqam sözünün müqabilində oxunmuşdur. Süləmi, Sərrac və Ruzbəhan məqam sözündən istifadə etmişlər. Xacə Abdullah Ənsari mənzil və meydanı işlətmiş və bu əsasla "Mənazilüs-sairin" və "Səd meydan"ı yazmışdır. Süləmi "Dərəcatül-müamilat"da dərəcəni məqam mənasında işlətmişdir.

Qeyd olunduğu kimi salikin öz son mətlubuna çatması üçün hallar və məqamlarının sayında müsəlman ərifləri arasında çoxlu ixtilaflar vardır. Həm onların sayında, həm də onların ardıcıllıq və düzülüşündə ixtilaf vardır. Burada tarixi ardıcıllıq üzrə bəzi böyük sufi və ariflərin baxışlarına nəzər salaq:

Bu barədə ən qədim mənbələrdən biri Əbu Əbdürrəhman Süləminin "Həqayiqüt-təfsir" (6) əsərində İmam Sadiqə (ə) məxsus olan təfsirdir. İmam bir neçə ayənin təfsirində sülukun mərhələlərini müxtəlif adlarla bəyan etmişdir. O cümlədən Əraf surəsinin 160-cı ayəsinin təfsirində.

وَأَوْحَيْنَا إِلَى مُوسَى إِذِ اسْتَسْقَاهُ قَوْمُهُ أَنِ اضْرِب بِّعَصَاكَ الْحَجَرَ فَانبَجَسَتْ مِنْهُ اثْنَتَا عَشْرَةَ عَيْنًا

Camaatı (Tih səhrasında) ondan (Musadan içməyə) su istədiyi zaman ona: "Əsanı daşa vur!" – deyə vəhy etdik. (Əsanı daşa vuran kimi) ondan on iki çeşmə qaynayıb axmağa başladı. (7/160)

İmam sülukun hər mərhələsini "bulaq" adlandırır və bəyan edir ki, mərifət əhli hər biri öz məqamında və öz qədərində bu bulaqlardan içirlər. O davamında on iki bulağı mərifətə çatmaq üçün on iki mərhələ bilir ki

"فمن شرب من عين منها يجد حلاوتها و يطمع فى العين التى هى ارفع منها من عين الى عين حتى يصل الى الاصل"

Bu on iki bulaq aşağıdakılardan ibarətdir: Tövhid, übudiyyət, ixlas, sidq, təvazo, riza, təmaninə və vüqar, səxa və təvəkkül, yəqin, ağıl, məhəbbət və on ikinci bulaq üns və xəlvətdir. Bütün bulaqlar mərifət bulağından qaynayır. İmam Sadiq (ə) son sətirlərdə bir bulaqdan digər bulağa qalxmaq olan irfani təcrübənin quruluşunu aydın şəkildə bəyan edir və bu, məqamlar və hallar haqqında ariflərin əqidəsinin müqəddiməsidir.

İmam başqa bir yerdə Fürqan surəsinin 61-ci ayəsinin təfsirində insan qəlbinin 12 bürcünün olduğunu deyir.

تَبَارَكَ الَّذِي جَعَلَ فِي السَّمَاء بُرُوجًا وَجَعَلَ فِيهَا سِرَاجًا وَقَمَرًا مُّنِيرًا

Səmada bürclər yaradan, orada bir çıraq (günəş) və nurlu ay vücuda gətirən (Allah) nə qədər (uca, nə qədər) uludur! (25/61)

Bu bürclərdən hər biri salikin getməli olduğu məqamlardır. Bu on iki bürc ibarətdir: iman, mərifət, ağıl, yəqin, islam, ehsan, təvəkkül, xouf, rəca, məhəbbət, şövq, vəle.

Həmçinin imam Nur surəsinin 35-ci ayəsinin təfsirində nurlardan söz açır ki, fərqli şəkildə möminlərə verilmişdir.

نُّورٌ عَلَى نُورٍ يَهْدِي اللَّهُ لِنُورِهِ مَن يَشَاء وَيَضْرِبُ اللَّهُ الْأَمْثَالَ لِلنَّاسِ وَاللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

O, nur üstündə nurdur. Allah dilədiyiniz öz nuruna qovuşdurur (istədiyinə öz nurunu bəxş edib cənnət yolu olan islam dininə yönəldir). Allah (həqiqəti anlaya bilsinlər deyə) insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir! (24/35)

Onların bəzisi daha az, bəzisi isə daha çox, öz halının tələbinə uyğun olaraq ondan bəhrələnir. Onların hamısı yalnız İslam Peyğəmbərinə (s) verilmişdir. Bu nurların sayı 40-dır ki, həzrət aşağıdakı ardıcıllıqla onları qeyd edir: qəlbin qorunması, xouf, rəca, hübb, təfəkkür, yəqin, təzəkkür, nəzət, elm, həya, imanın şirinliyi, ehsan, nemət, fəzl, ala, kərəm, lütf, qəlb, əhatə, heybət, heyrət, həyat, üns, istiqamət, istikanət, təmaninə, əzəmət, cəlal, qüdrət, fütuvvət, əlvəhyət, vəhdaniyyət, fərdaniyyət, əbədiyyət, sərmədiyyət, deymumiyyət, əzəliyyət, bəqa, küliyyət və ilahi huviyyət nuru. (22, 143)

Məlumdur ki, imamın işlətdiyi bulaq, bürc və nur sonralar irfani mətnlərdə mənzil və məqamlar kimi işlənən sözlərin qarşılığıdır. Amma İmam Sadiqə (ə) mənsub olan təfsirdə bu mənzillərin sayının müxtəlifliyi göstərir ki, imam öz təcrübəsini izah etsə də, onun üçün tam nəzəriyyə hazırlamaq qəsdində olmamışdır.

Şəqiq Bəlxi (810/11 v) elmi irfan sahəsində ilk əsər sayılan “Adabul-ibadat” kitabında süluk mənzillərini dörd mənzildə təqdim edir:

انّ المنازل التي يعمل فيها اهل الصدق اربع منازل: اولها الزهد، و الثاني الخوف، و الثالث الشوق الي الجنة، و الرابع المحبة لله. و هذه منازل الصدق

Sidq əhlinin fəaliyyətdə olduğu mənzillər dörd mənzildir: zöhd, xouf, behiştə şövq, Allaha məhəbbət. (15)

Haris Mühasibi (857/58 v) hal və məqamın mənasının açılmasına diqqət edən kəslərdən olmuşdur. Hücviri onun adını vərə və nəfsin mühasibəsinə xüsusi diqqəti olan mühasiblərin rəhbəri kimi qeyd etmişdir. Hallar və məqamlar barədə onun sözünü belə bilir ki, çox ariflərin əksinə olaraq rizanı əhvaldan saymışdır ki, bu məsələ Xorasan və İraqda sufilərin əqidə ixtilafına səbəb olmuşdur. Mühasibi “əl-Qəsd və rücu iləllah” (həmin kitabda vəsiyyətlər yazılmışdır) Allaha çatmağın mərtəbələrinin zikrində sonralar “əl-Lümə” və “Risaleyi-Quşeyriyyə”də yazılmış məqamat və əhvalın məfhumu ilə uyğun gələn məsələləri müzakirə etmişdir. Lakin onlara məqam ya əhval adı verməmişdir. O, birinci mərtəbədə tövbəni qeyd edir. Sonra bir-birinin ardınca vərə, zöhd, ağıl, sidq, ixlas, riya, icab, fərəh bil-əməl, şükr, səbr, riza, mərifət, etibar, qəlbin təharəti, hikmət, nəfsin hədisi, hüzn, məhəbbət, müraqibə, həya, xouf və s.-nın adını çəkir. Hələ III əsrdə hal və məqamın dəqiq mənasının olmadığını nəzərə alsaq, bu cür bölgünü məqam üçün predmetlər kimi nəzərdə tutmaq olar. (20, 106)

Hicri III (X) əsrin ariflərindən Yəhya bin Məaz (871/72 v) məqamlar və mənzilləri yeddi mənzil bilir:

الدرجات التي يسعي اليها ابناء الاخرة سبع: التوبة، ثم الزهد، ثم الرضا، ثم الخوف، ثم الشوق، ثم المحبة، ثم المعرفة

Axirət əhlinin onlara tərəf hərəkətdə olduğu mənzillər yeddi mənzildir: Tövbə, zöhd, riza, xouf, şövq, məhəbbət və mərifət.

Məhəmməd Əli Həkim Tirmizi (899/900 v) özünün “Xətmül-övliya” adlı məşhur kitabında sülukun mənzillərini bəyan etmişdir. Tirmizi bu kitabın IV fəslində bu mənzillərin sayının 248 minə çatdırmışdır və onları üç təbəqədə qruplaşdırmışdır. Əvvəl, orta və axır

təbəqə. 123807 mənzil orta təbəqəyə məxsusdur və digər mənzillər qalan iki təbəqəyə. Əlbəttə o, bu mənzilləri ridai-kibriya aləminə məxsus bilir və bu fikirdədir ki, əfradi-əzəmət aləmində mənzillərin sayı təqribən 1200-dən çox deyil. Tirmizi həmçinin mənzilləri iki – hissi və mənəvi dəstələrə bölür. Dünyada hissi mənzilləri həmin irfani hallar bilir ki, salik onların vasitəsilə xariqüladə işlər görə bilər. Və axirətdə hissi mənzilləri behişt bilir ki, özünün yüz dərəcəsi vardır. İki dünyada hissi mənzillərin cəmi 110 mənzildən çoxdur ki, hər mənzil digər mənzilləri yaradır. Mənəvi mənzillər 284 mənzildir ki, İslam ümmətindən qabaq kimsə onlara çata bilməmişdir. Bütün bu mənzillər müsəlman ariflərinə məxsusdur. Bu mənzillər dörd məqamda yığılır: Elmi-lədünni, elme-nur, elme cəm və təfriqə, ilahi kitabətdir ki, bu məqamlardan hər birindən çoxlu mənzillər yaranır.

Əbu Səid Xərraz seyrü-süluk mərhələlərini izah edən ariflərdəndir. O özünün "əz-Ziya" kitabında salikləri teyhuhiyyə və heyruriyyə adlandırır və onların vəsfində deyir ki, nur və ilahi vəhdət dənizində qərq olmuş və ilahi zatın qarşısında heyrətə düçar olmuşlar. Xərraz bu qrup üçün yeddi mərtəbə qeyd edir və hər mərtəbəni bir mənzildə yerləşdirir, bu mənzil və mərtəbələri ilk və sona ayırır. Bu mənzillər ibarətdir:

İşarat əhlinin mənzili: Bu mənzildə olan saliklərin predmeti Yunis surəsinin 2-ci ayəsidir.

أَكَانَ لِلنَّاسِ عَجَبًا أَنْ أَوْحَيْنَا إِلَى رَجُلٍ مِّنْهُمْ أَنْ أَنذِرِ النَّاسَ وَبَشِّرِ الَّذِينَ آمَنُواْ أَنَّ لَهُمْ قَدَمَ صِدْقٍ عِندَ رَبِّهِمْ قَالَ الْكَافِرُونَ إِنَّ هَـذَا لَسَاحِرٌ مُّبِينٌ

İçərilərindən bir adama: "İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" – deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, açıq-aşkar bir sehrbazdır!" dedilər. (10/2)

Bu qrupun Allahdan nəsibi nurlar və işarələrdir.

Elm əhlinin mənzili: Bu mənzilin salikləri özlərini elmin paklığında saxlamaq ardıncadırlar, çünki bu fikirdədirlər ki, elm onlarda nə qədər pak olsa da, onların görməsi daha artıq olar.

Mücahidə əhlinin mənzili: Bu qrup ruhani cihadda yaşayırlar, hər şeyə arxa çevirirlər. Onlar nəfsin təmizlənməsinin ardınca olsalar da, öz hallarında dəyişikliyə düçar olurlar və dəyişiklikdə yaşayırlar.

Xüsusiyyət əhlinin mənzili: Bu qrup haqqın xüsusi adamlarındandırlar ki, Allah-Təalanın inayəti ilə onun yaxınlığına nail olmuşlar.

Təcrid əhlinin mənzili: Bu mənzildə saliklər dünyəvi bağlılıqlardan qırılırlar, dövrün acılıq və əziyyətlərini qəbul edirlər və xalis zöhdə nail olurlar. Onlar sidqdən daha yuxari qalxırlar və məhəbbət badəsindən içirlər.

Təmkin əhlinin mənzili: Bu mənzilin sakinləri öz hallarına üstün gəlirlər və ruhi sabitliyə malik olurlar. Onlar Allahın inayəti ilə şühud aləmindən qeyb aləminə gedirlər və Allahın seçilmişlərindən sayılırlar.

Mühabah əhlinin mənzili: Bu mənzilin salikləri digər sufi və saliklərdən üstündürlər. Allah onları elə bir yerə aparmışdır ki, dünya ilə bağlılıqları qırılmışdır və heç bir şeyə ürək bağlamırlar. Onlar Həzrət Haqqın yaxınlığında Onun mələkut və kibriyasını müşahidə edirlər. Əbu Səid Xərraz özünün "Kitabüs-saffat" adlı digər kitabında qürb əhli üçün mənzillər nəzərdə tutmuşdur ki, ardıcıllığı belədir: vəcd, dəhşət və unutqanlıq.

Əbu Səid Xərraz (892 ya 899 v) "Təzkirətül-övliya"da Əttar Nişapurinin nəqlinə əsasən süluk məqamlarını dörd mənzil bilirdi:

اول مقامات اهل معرفت تحير است با افتقار، پس سرور است با اتصال، پس فنا است با انتباه، پس بقا است با انتظار. و نرسد هيچ مخلوقي بالاي اين. اگر كسي گويد: پيامبر (صلي الله عليه و آله) نرسيد؟ گوييم: رسيد

Mərifət əhlinin məqamlarının birincisi iftitarla təhəyyür, sonra ittisalla sürur, sonra intibahla fəna, sonra intizarla bəqadır. Və heç bir məxluq bundan yüksəyinə çata bilməz. Əgər kimsə desə, Peyğəmbər (s) çatmadı? Deyərik: Çatdı.

Əbülhüseyn Nuri (907 v) digər ariflərdəndir ki, süluk mərhələlərini yeni baxışla izah etmişdir. O Allaha tərəf hərəkəti bir dəniz səfərinə oxşadır ki, onda salik üç dənizdən keçməlidir. Biri rübubiyyət dənizi, digəri mehiminiyyət, üçüncüsü lahutiyyətdir. Amma rübubiyyət dənizi elədir ki, elə ki onda qərq oldu bilir ki, Rəbb Allahdır və özü Onun böyütdüyüdür (Rəbb, mərbub), belə ki, qəlbi fikir dənizində dalğıclıq edir, dili Allah nemətlərini zikr edir, gözü xoş haldan ibrət almaq, nəfsi xidmətə, Allahın razılığının axtarışındadır

Əbülhüseyn Nurinin "Məqamatül-qülub" adlı kitabı sufilər arasında məşhurlaşmışdır. O, Bağdad məktəbinin məşhur şəxsiyyətlərindən biri olmuşdur. Nuri bu risaləsində Qurani-Kərimdən ayələrə istinadən qəlbin məqamlarının sayının dörd olduğunu demişdir. Onun izahı belədir: Allah Qurani-Kərimdə qəlbi dörd adla təqdim etmişdir: Sədr, qəlb, fuad, ləbb. O Sədri İslamın məqamı bilir. Çünki Allah-Təala buyurur.

أَفَمَن شَرَحَ اللَّهُ صَدْرَهُ لِلْإِسْلَامِ فَهُوَ عَلَى نُورٍ مِّن رَّبِّهِ

Məgər Allahın köksünü (qəlbini) islam üçün açmaqla Rəbbindən nur üzərində olan kəs (qəlbi möhürlənmiş kimsə kimi ola bilərmi)?! (33/22)

وَلَكِنَّ اللَّهَ حَبَّبَ إِلَيْكُمُ الْإِيمَانَ وَزَيَّنَهُ فِي قُلُوبِكُمْ

Lakin Allah sizə imanı sevdirmiş, onu ürəklərinizdə süsləmiş... (49/7)

مَا كَذَبَ الْفُؤَادُ مَا رَأَى

Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı. (53/11)

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافِ اللَّيْلِ وَالنَّهَارِ لَآيَاتٍ لِّأُولِي الْأَلْبَابِ

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır. (3/190)

O, bu dörd məqamdan hər birini qeyd etdikdən sonra onların bir-biri ilə rabitəsi haqqında yazır:

**توحيد منزه داشتن حق است از دريافته شدن. و معرفت اثبات صفات والا و اسماي حسنا براي حق است، و ايمان وابستگي به گسستگي از همة سود و زيان هايي است كه قلب ها را شيفته دارد به لواي حق ـ عزوجل ـ و اسلام تسليم و سپردن همة كارهاست به خداي ـ عزوجل ـ در آشكار و نهان. و اين نورها در باطن موحّدان موجود است. معرفت جز با توحيد، و ايمان جز با معرفت، و اسلام جز با ايمان درست نيايد. پس كسي را كه توحيد نيست معرفت نيست، و آن را كه معرفت نيست ايمان نيست، و آن كه ايمان ندارد اسلام ندارد، و هر كس اسلام ندارد كار و رفتار و كردار ديگرش او را سودي ندهد.**

Tovhid haqqı dərk olunmaqdan pak bilməkdir. Və mərifət üstün sifətlərin və haqq üçün əsmayi-hüsnanın isbatıdır və iman bütün xeyir və ziyanlardan qırılmağa bağlılıqdır ki, qəlbləri izzət və cəlal sahibi olan haqqın bayrağına vurğun edir, islam, təslim gizlin və aşkarda bütün işləri izzət və cəlal sahibi olan Allaha tapşırmaqdır. Və bu nurlar müvəhhidlərin batinində mövcuddur. Mərifət yalnız tövhidlə, iman yalnız mərifətlə, islam yalnız imanla düz gələr. Elə isə kimin ki tpvhidi yoxdur mərifəti yoxdur, kimin ki mərifəti yoxdur imanı yoxdur, o kəsin ki imanı yoxdur islamı yoxdur və hər kəsin ki islamı yoxdur başqasının işi, əməli, rəftarı ona fayda verməz. (22, 289-290)

Əbu Nəsr Sərrac Tusi (988/89 v) "əl-Lümə fit-təsəvvüf" kitabında yeddi məqamı aşağıdakı ardıcıllıqıa bəyan edir: Tövbə, vərə, zöhd, fəqr, səbr, təvəkkül və riza. (26)

Əbu Bəkr Kəlabadi (990/991 v) "ət-Təərrüf liməzhəbi əhlit-təsəvvüf" kitabında sülukun on yeddi məqamını qeyd etmişdir: tövbə, zöhd, səbr, fəqr, təvazo, xouf, təqva, ixlas, şükr, təvəkkül, riza, yəqin, zikr, üns, qürb, ittisal və məhəbbət. (19)

Əbu Talib Məkki (996/97 v) dəyərli "Qutul-qulub" kitabında doqquz məqamı sayır: tövbə, səbr, şövq, rəca, xouf, zöhd, təvəkkül, riza və məhəbbət. (21, 216)

Əbu Əbdürrəhman Süləmi (1021/22 v) "Dərəcatül-müamilat" kitabında məqamlar adı ilə qeyd etdiyi mövzular ümumilikdə aşağıdakı 44 mövcudur. Hərçənd ki, onların hamısını süluk mənzillərindən saymaq olmaz: tövbə, inabə, təqva, xouf, rəca, zöhd, təvəkkül, ixlas, vəfa, fəqr, cud və səxa, təfəkkür, həya, inayət, riza, təsəvvüf, xuluq, ziyarət, səma, vəcd, vü-

cud, təvacüd, haqq, həqiqət, mərifət, yəqin, təfrid, təcrid, fərasət, məhəbbət, eşq, sidq, şövq, elmül-yəqin, eynül-yəqin, müvafiqət, müşahidə, üns, sukr, fəna, bəqa, cəm və təfriqə.

Həmin müəllif "Sülukul-arifin" kitabında on doqquz mənzili qeyd edir: tövbə, müəyyən olunmuş vaxtlarda vəzifələrin icrası və dini öhdəliklər, vərə, zöhd, xouf, rəca, səbr, riza, təvəkkül, təfviz, təslim, mücahidə, həya və iradə, fəqr, mükaşifə, fəna və bəqa, təmkin cəm və təfriqə. (10)

Əbu Mənsur İsfahani (1027/28 v) "Nəhcül-xass" kitabında qırx mənzili qeyd edir: tövbə, iradə, sidq, ixlas, mühasibə, vərə, zöhd, təvəkkül, fəqr, səbr, riza, xouf, rəca, müamilə, riayət, ədəb, riyazət, fütuh, rəğbət, rəhbət, həqiqət, məhəbbət, şövq, səma, vəcd, hərəkət, sukun, təmaminə, müşahidə, müraqibət, mükaşifə, sirr, yəqin, mərifət, təsəvvüf, qeyrət, məkr, qürbət, vurud, himmət.

İbn Sina (1036/37 v) "İşarat vət-tənbihat"ın doqquzuncu nətində seyr mənzillərinin on bir olduğunu qeyd etmişdir: iradə, riyazət, vaxt, təvəqqul, istifaz, inqilab, təğəlğul, məşiyyət, təric, tərəddüd və vüsul.

Xacə Abdullah Ənsari (1005/6-1088/89) "Səd meydan" (2) və "Mənazilüs-sairində" (3) sülukun yüz mənzil və məqamını bəyan edir. Bu iki kitabda məqamların ardıcıllığı bir-birindən fərqli yerlərdə göstərilmişdir.

Şeyx Əbu Məhəmməd Ruzbəhan Bəqli Şirazi (1209/1210 v) "Məşrəbül-ərvah" kitabında 1001 məqamı qeyd edir. Müəllif öz kitabını 20 babda tənzim etmişdir ki, onların çoxu 50 fəsli əhatə edir və hər fəsil də məqamlardan birinə işarədir. Ruzbəhan Bəqli bu kitabın tərtibinin açıqlanmasında deyir: İlahi inayətlə süluk məqamlarının qətinə, ilahi camal və cəlalın müşahidəsinə nail olduqdan, məqamlar və hallarda seyr etdikdən və tovhid məqamına çatdıqdan sonra İlahi dərgaha şükrü qorumaq və Həzrət Haqqın göstərişinə əməl etmək məqsədilə (Zuha 11) qərara aldım ki, bu yolun taliblərini və irfan yolunun saliklərini ariflərin bəzi məqamlarından agah edim. Həmin səbəbdən də ariflərin məqamlarının arasından və müxatiblərin dərk səviyyəsinə uyğun olaraq min məqamı seçdim ki, oxucular ilahi övliya və ariflərin hansı məqamlarının olduğunu və ilahi dərgahda hansı məqama malik olduqlarını bilsinlər.

Bu kitabın 20 babının adları belədir: Birinci bab: Fi məqamatil-məczubin; ikinci bab: Fi məqamatis-salikin, üçüncü bab: fi məqamatis-sabiqin, dördüncü bab: fi məqamatis-siddiqin; beşinci bab: fi məqamatil-muhibbin; altıncı bab: fi məqamatil-müştaqin; yeddinci bab: fi məqamatil-aşiqin; səkkizinci bab: fi məqamatil-arifin; doqquzuncu bab: fi məqamatiş-şahidin, onuncu bab: fi məqamatil-müqərrəbin; on birinci bab: fi məqamatil-müvəhhədin, on ikinci bab: fi məqamatil-vasilin; on üçüncü bab: fi məqamatin-nüqəba; on dördüncü bab: fi məqamatil-əsfiya, on beşinci bab: fi məqamatil-ouliya; on altıncı bab: fi məqamati əhlil -əsrar minən-nücəba; on yeddinci bab: fi məqamatil-müstəffin, on səkkizinci bab: fi məqamatil-xüləfa; on doqquzuncu bab: fi məqamatil-bədəla; iyirminci bab: fi məqamatil-əqtab. Ruzbəhanın bu kitabda bəyan etdiyi ilk məqam fi məqamil-ruh fi bədvi əmruha qəblə duxuluha fil-cəsəddir və sonuncu məqam da elmul-əsmaul-kulliyyədir. (5, 400)

Əttar Nişapuri (1221 v) "Məntiqüt-teyr"də yeddi məqamı bəyan edir: tələb, eşq, mərifət, istiqna, tövhid, heyrət, fəqr və fəna. (23)

Əbu Nəcib Söhrəvərdi (1154-1191) "Adabul-muridin" kitabında on dörd məqamı qeyd edir: intibah, tövbə, inabət, vərə, mühasibə, iradə, zöhd, fəqr, sidq, təsəbbür, səbr, riza, ixlas və təvəkkül. (12,13)

Xacə Nəsrəddin Tusi (1200/1-1283/74) "Ousaful-əşraf" kitabında 31 məqam və mənzili xüsusi ardıcıllıqla bəyan edir: iman, səbat, niyyət, sidq, inabə, ixlas, tövbə, zöhd, fəqr, riyazət, mühasibə, müraqibə, təqva, xəlvət, təfəkkür, xouf, rəca, səbr, şükr, iradə, şövq, məhəbbət, mərifət, yəqin, sukun, təvəkkül, riza, təslim, tövhid, ittihad, vəhdət, fəna ya darul-qərar. (27)

**Nəticə**

*Bütün deyilənləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:*

*1. Ariflərin hal və məqam haqqında verdikləri çoxsaylı təriflərə baxmayaraq, onların əksəriyyətinin istifadə etdiyi tərifi qəbul etmək olar; məqam qazanılan, ixtiyari və sabitdir, hal verilən, ixtiyardan xaric və ötəridir.*

*2. Hal və məqam terminlərinin kökü Quran və hədislərdən qaynaqlanır.*

*3. Farsdilli mətnlərdə məqamların müxtəlif bölgü və adları vardır: bulaq, nur, bürc (İmam Sadiqin (ə) sözlərinə əsasən), bəhr və dəniz (Əbülhüseyn Nurinin nəzərincə), əqəbə (Həkim Tirmizinin fikrincə), mənzil (Şəqiq Bəlxinin sözlərində), meydan və mənzil (Xacə Abdullah Ənsarinin fikrincə), qəsr, mane, hicab (Cüneydin nəzərində), Ruzbəhan Bəqli və digər ariflərin fikrində məqam.*

*4. Adlarla yanaşı seyrü-sülukun mərhələlərinin sayı haqqında müxtəliflik də daha geniş şəkildə nəzərə çarpır. Məsələn, Əbülhüseyn Nuri bu fikirdədir ki, üç dənizi keçdikdən sonra Allahın əzəmətinə çatmaq olar; Şəqiq Bəlxi mənzillərin sayını dörd məqamda yerləşdirir; Fəridəddin Əttar "Müsibətnamə"də hiss, xəyal, ağıl, ürək və can vadilərinin adını çəkir; Ariflər arasında süluk mərhələlərinin yeddi olduğunu deyən ilk kəs Həkim Tirmizi olmuşdur ("Mənazilul-qasidin" risaləsində); Ondan sonra Əbu Nəsr Sərrac "əl-Lümə" əsərində və Fəridəddin Əttar "Məntiqüt-teyr"də mərhələlərin yeddi olmasına işarə etmişlər; Xacə Abdullah Ənsari üç əsərində - "Səd meydan", "İləlül-məqamat" risaləsi və "Mənazilüs-sai-rin"də yüz məqamdan danışmışdır; Ruzbəhan Bəqli "Məşrəbül-ərvah"da min məqamdan söz açmış, eyni zamanda Cüneydə istinadən min qəsr və min mane, Zunnuna istinadən min elmin adını çəkmişdir. Gördüyümüz kimi, məqamların bölgüsünün sonu yoxdur. Belə ki, onların sayı on minllərə çata bilər. Həkim Tirmizi "Xətmül-övliya" kitabında bu mənzillərin sayının iki yüz qırx səkkiz min olduğunu bildirir.*

*5. Məqamların predmetini araşdırarkən məlum olmuşdur ki, bir çox ariflərin məqam kimi saydığı digərləri tərəfindən hal kimi qəbul olunmuşdur. Yaxud da bir qrup hal mənasını verən predmeti məqam adlandırmışdır.*

*6. Məqamların birinci ya sonuncu olmasının elə bir əhəmiyyəti olmasa da, sufinin seyrü-sülukunda dərəcə və məqamlara çatması üçün xüsusi əhəmiyyəti vardır və salik öz əqidəsinə görə həmişə ən yüksək məqamlara çatmaq üçün çalışır.*

*7. İrfani hal və məqamlar mövzusunda ən əsas və mühüm dəyişiklik VI əsrin (XIII) sonuna kimi, yəni IV (X) əsrdə Əbu Nəsr Sərrac, V (XI) əsrdə Xacə Abdullah Ənsari tərəfindən həyata keçirilmiş və hər biri öz dövründə onun genişlənib təkmilləşməsinə öz töhvəsini vermişdir. Buna görə də, X-XII əsrləri hal və məqamların nəzəri baxımdan inkişaf dövrü adlandırmaq olar.*

**Ədəbiyyat siyahısı:**

1. قرآن کریم
2. انصاری خواجه عبد الله. منازل السائرین. ترجمه عبد الغفور روان فرهادی. تهران:1361، 296 ص.
3. انصاری خواجه عبد الله. صد میدان. به کوشش اکرم شفائي
4. بقلي شيرازي، شيخ روزبهان .شرح شطحيات .تصحيح هنري كربن .تهران :كتابخانه طهوري1382 .
5. بقلي شيرازي، شيخ روزبهان . 1389 . مشربالارواح .ترجمه و شرح قاسم ميرآخوري. تهران :آزادمهر1389 .
6. پورجوادي، نصرالله .مجموعه آثار ابوعبدالرحمن سلمي .جلد اول .تهران :مركز نشر دانشگاهي، 1369، 502 ص.
7. جرجاني، علي بن محمد. التعريفات .بي جا :قاهره، 2005
8. سجادی سید جعفر. فرهنگ اصطلاحات و تعبیرات عرفانی. چاپ سوم. تهران: طهوری، 1375
9. سرّاج طوسي، ابونصرعبدالله بن علي . .اللمع في التصوف الاسلامي .تصحيح و تحشيه رينولد آلن نيكلسون، ترجمه مهدي حجتي .تهران :اساطير1382 .
10. سلمي، ابوعبدالرحمن .درجات المعاملات .تصحيح احمد طاهري عراقي مجموعه آثار سلمي .ج 1، تهران :نشر دانشگاهي 1369
11. سهروردي .شهابالدين يحيي بن حبش .عوارفالمعارف .به اهتمام قاسم انصاري. تهران :علمي فرهنگي1364 .

12. سهروردي .شهابالدين يحيي بن حبش . 1355 . مجموعه آثار فارسي شيخ اشراق .با مقدمه هانري كربن. تصحيح حسين نصر .تهران :انستيتوي فرانسوي پژوهشهاي علمي در ايران
13. سهروردي .شهابالدين يحيي بن حبش، سه رساله از شيخ اشراق .تصحيح ومقدمه نجفقلي حبيبي. تهران :انجمن شاهنشاهي فلسفه ايران.
14. شبستري، محمود . 1382 .گلشن راز .به اهتمام كاظم دزفوليان .تهران :طلايه.
15. شقيق بلخي، ابوعبدالله" .رساله آداب العبادات ."تصحيح پل نويا .ترجمه نصرالله، 1366
16. غزالي طوسي، ابوحامد محمد .كيمياي سعادت .چاپ چهارم .تهران :علمي- فرهنگي1368 .
17. فيض كاشاني، محسن .بي تا .محجه البيضاء في تهذيب الاحياء .جز .7 بي جا :دفتر انتشارات اسلامي.
18. قشيري، عبدالكريم بن هوازن .ترجمه رساله قشيريه .با تصحيحات بديع الزمان فروزانفر .چاپ سوم .تهران :علمي فرهنگي، 1367
19. كلابادي، ابوبكر محمد .التعرف لمذهب التصوف .به كوشش محمدجواد شريعت. تهران :اساطير، 1371
20. محاسبي، ابوعبدالله حارث بن اسد .الوصايا .تصحيح عبدالقادر احمد عطا .الطبعه الاولي .بيروت :دارالكتب العلميه، 1986
21. مكي، ابوطالب محمد بن ابي الحسن ..قوت القلوب في معامله المحجوب .به كوشش سعيد نسيب مكارم .بيروت :دار صادر چاپ سوم .جلد اول. 2007
22. نويا، پل . 1373 .تفسير قرآني و زبان عرفاني .ترجمه اسماعيل سعادت .تهران :مركز نشر دانشگاهي
23. نیشابوری فرید الدين عطار، منطق الطير، به اهتمام دكتر احمد رنجبر، انتشارات اساطير، 1359، 665 ص
24. هجوری، ابوالحسن علی بن ابی علی جلابی، کشف المحجوب، به کوشش: محمد حسین تسبیحی، انتشارات مرکزتحقیقات فارسی ایران و پاکستان، اسلام آباد، 1374، 697 ص.
25. Kuşeyri Abdulkerim. Kuşeyri risalesi. Dergah, 1999, 527 s.
26. Tusi Ebu Nasr Serrac. el-Lüma, İslam tasavvufu. Altınoluk, 558 s.
27. http://erfanvahekmat.com/**دانشنامه/اوصاف_الاشراف**

**Айгюн Ализаде**

**Понятия хал (состояние) и макам (духовная стоянка) в суфизме**

В статье были исследованы происхождение, определение, последовательность, различие предмета и количества терминов *хал* (состояние) и *макам* (духовная стоянка), с точки зрения Корана и хадисов. Исследование было проведено на основе «Ал-Лума» Абу Насра Сарраджа, «Сад майдан» и «Маназил ас-саирин» Хаджа Абдуллаха Ансари, «Мусибатнаме» и «Мантик ат-тайр» Фаридаддин Аттара, а также других известных суфийских произведений. Были разъяснены причины таких обозначений *макам*ов в литературе *ирфан*а, как площадь, здание, башня, свет, родник, море и других.

***Ключевые слова:*** *макам, хал, суфизм, предметная литература.*

**Aygun Alizade**

**The concepts of momentum and situation in sufism**

The Paper deals with the origins of momentum and situation in terms of the Qur'an and the hadiths, their definition, sequence, object and variety. Many important Sufi works such as Abu Nasr Sarraj`s work of “al-Luma fit-tasavvuf”, Khwaja Abdullah Ansari`s work of “Sad Meydan”, Farid-al-Din Attar’s works of “Musibat-nama” and “Mantiq al-Tayr” has been involved in research. Author also explained the reasons of the calling of the momentum such as squares, apartments, constellations, light, springs, sea etc. in the wisdom literature.

***Key words:*** *Moment, Case, Sufficiency, Subject Literature*

Redaksiyaya daxil olma tarixi: 04.10.2019
Çapa qəbul olunma tarixi: 27.10.2019

Filologiya üzrə elmlər doktoru, professor
**Mehdi Kazimov** tərəfindən çapa tövsiyə olunmuşdur.